

**YUSİF HÜMBƏTOV,**
Azərbaycan Respublikası Prezidentin
İcra Aparatının şöbə müdiri

# HEYDƏR ƏLİYEVİN QURUCULUQ SALNAMƏSİNİN BƏZİ MƏQAMLARI

60-cı illərin sonuna qədər Azərbaycan keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında sosial-iqtisadi göstəricilərinə görə geridə qalan aqrar ölkə kimi tanınırdı.

Ölkədə yaranmış belə bir ağır şəraitdə 1969-cu ilin iyul ayında Heydər Əliyev respublikanın rəhbəri seçildi. Azərbaycan KP MK-nın elə həmin ilk keçirilən plenumunda Heydər Əliyev respublikada yaranmış ağır sosial-iqtisadi vəziyyəti və qeyri-sağlam mənəvi-psixoloji vəziyyəti dərindən və hərtərəfli təhlil edərək, tənəzzülün qısa müddətdə qarşısının alınması yollarını göstərdi. Konkret tədbirlər planına uyğun respublikada səfərbərlik elan edildi. Aparılan geniş quruculuq işləri çox qısa bir müddətdə öz bəhrəsini verdi. Heydər Əliyevin müdrik rəhbərliyi altında və Azərbaycan xalqının əzmkarlığı nəticəsində 80-ci illərdə respublikamız bütün sahələrdə ən yüksək göstəricilər əldə edərək keçmiş müttəfiq respublikalar arasında ön yerlərdən birini tutmaqla, inkişaf etmiş sənaye ölkəsinə çevrildi.

Həmin dövrdə respublikanın sosial-iqtisadi sahələrinin inkişafına əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox əsas vəsait qoyulmuşdur. 250-dən çox zavod, fabrik, istehsal sexi, emal müəssisəsi tikilib istifadəyə verilmiş, çox gəlirli sahə olan üzümçülük sürətlə inkişaf etdirilmiş və istehsalata yeni texnologiyalar tətbiq olunmuşdur. Azərbaycanda 1969-cu ilə nisbətən 1982-ci ildə maşınqayırma və metal emalı sənayesində polad boru istehsalı 460,6 min tondan 541,5 min tona (117,6 %), dərin nasos ştanqları 323 min ədəddən 361,1 min ədədə (111,8%), mancanaq dəzgahları 2,1 min ədəddən 4,5 min ədədə (2,1 dəfə), elektrik mühərrikləri 252,7 min ədəddən 318,7 min ədədə (126,1%), güc transformatorları 740 min KVa-dan 2197 KVa-ya (3 dəfə), soyuducular və buzxanalar 58,6 min ədəddən 286 min ədədə (4,9 dəfə) çatdırılmışdır. Respublikada yeni istehsal sahəsi olan kondisionerlər zavodu istifadəyə verilmiş və 1982-ci ildə artıq 429,9 min ədəd kondisioner istehsal edilmişdir.

Bu dövrdə kimya və tikinti materialları sənayesində böyük nailiyyətlər əldə edilmişdir: mineral kübrə istehsalı 2,2 dəfə, susuz sulfat turşusu istehsalı 6 dəfə, kaustik soda istehsalı 68,4 faiz, polietilen istehsalı 4,7 dəfə, tikinti kərpici istehsalı 88,9 faiz, asbest-sement tavalar (şifer) istehsalı 41,5 faiz artmışdır.

Həmin dövrüdə elektrik enerjisi istehsalı sahəsinin inkişaf etdirilməsi, respublikanın elektrik enerjisi sistemini SSRİ-dən asılı vəziyyətdən çıxarmaq üçün çox

mühüm tədbirlər görülmüşdür. 1970-ci ildə Naxçıvanda "Araz" su-elektrik qovşağı, 1976-cı ildə Dağlıq Qarabağda "Sərsəng" su-elektrik stansiyası, 1981-ci ildə Mingəçevirdə Azərbaycan DRES-in birinci bloku, 1982-ci ildə isə Şəmkirdə su-elektrik stansiyası istifadəyə verildi. Bütün bunların nəticəsində elektrik enerjisinin istehsalı 45 faiz çoxalmışdır.

Yüngül sənayedə mahlıc istehsalı 2,3 dəfə, xalça və xalça məmulatı istehsalı 5,1 dəfə, ayaqqabı istehsalı 88,3 faiz artmışdır.

1969-cu ilə nisbətən 1982-ci ildə respublikada taxıl istehsalı 573,9 min tondan 1211,3 min tona (2,1 dəfə), pambıq istehsalı 299,4 min tondan 831,2 min tona (2,7 dəfə), tütün istehsalı 24,5 min tondan 57 min tona (2,3 dəfə), kartof istehsalı 112,9 min tondan 184,2 min tona (163,2 faiz), tərəvəz istehsalı 372 min tondan 916,7 min tona (2,5 dəfə), bostan məhsulları istehsalı 48,3 min tondan 93,4 min tona (193,4 faiz), meyvə və giləmeyvə istehsalı 52,2 min tondan 345 min tona (6,6 dəfə), üzüm istehsalı 272 min tondan 1815,6 (6,7 dəfə), yaşıl çay yarpağı istehsalı 9,4 min tondan 26,7 min tona (2,8 dəfə) çatdırılmışdır. Göstərilən nailiyyətlər müvafiq əkin sahələrinin genişləndirilməsi ilə yanaşı, əsasən, hər hektardan məhsuldarlığın yüksəldilməsi hesabına əldə edilmişdir.

Bu dövrdə qaramalın sayı 1671,4 min başdan 1851,6 min başa (110,8 faiz), davarın sayı 4708,3 min başdan 5471,2 min başa (116,2 faiz), quşların sayı 8038,6 min başdan 23152,6 min başa (2,9 dəfə) çatdırılmış; ət istehsalı 62,3 faiz, süd istehsalı 2 dəfə, yumurta istehsalı 2,3 dəfə, yun istehsalı 62,8 faiz, barama istehsalı 47,2 faiz artmışdır. Bütün bunların nəticəsində sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı 2,7 dəfə, respublikanın milli gəliri 2,5 dəfə çoxalmış, adambaşına məhsul istehsalının artım sürəti 2 dəfədən çox olmuşdur.

Milli gəlirin artımı hesabına respublikada yeni yaşayış massivləri, kənd və qəsəbələr salınmışdır; 18,5 milyon kvadratmetr yaşayış sahəsi tikilib istifadəyə verilmiş, 2 milyon 200 min vətəndaş təzə mənzillərə köçmüş və ya mənzil şəraitini yaxşılaşdırmışdır.

Təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, 5000 şagirdlik 800-ə yaxın orta və internet məktəb, 70 min yerlik 415 uşaq bağçası - körpələr evi tikillib istifadəyə verilmişdir.

Milli intellektin inkişaf etdirilməsi məqsədilə ölkə daxilində və keçmiş SSRİ məkanında fəaliyyət göstərən qabaqcıl təhsil müəssisələrinin və elm ocaqlarının imkanlarından tam və hərtərəfli istifadə olunmuşdur. Hər il 1000-ə yaxın vətəndaşımız Rusiyanın tanınmış ali təhsil məktəblərində və elmi tədqiqat institutlarında yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmış, namizədlik və doktorluq dissertasiyaları müdafiə etmişdir. Bu gün də həmin kadrlar müxtəlif sahələrdə məsul işlərdə çalışırlar.

Göstərilən illərdə respublikada səhiyyə sahəsində həm keyfiyyət, həm də kəmiyyət baxımından müsbət irəliləyişlərə nail olunmuşdur. Mövcud xəstəxanaların əksəriyyəti təmir olunaraq, yeni avadanlıqla təchiz edilmiş, əhaliyə ambulatoriya-poliklinika xidməti göstərən müalicə müəssisələrinin sayı 10,7 faiz artaraq 1191-ə ədədə çatmış, qadın məsləhətxanalarının, uşaq poliklinikalarının və ambulatoriyalarının sayı 3,2 dəfə, xəstəxana çarpayılarının sayı 7,2 faiz artmışdır. Bu dövrdə bütün həkimlərin sayı 80,6 faiz, orta tibb işçilərinin sayı 46,0 faiz çoxalmışdır.



Tarixi abidələrin qorunub saxlanması, tanınmış mütəfəkkirlərin, elm və incəsənət xadimlərinin adlarının əbədiləşdirilməsi ilə bağlı çox mühüm işlər görülmüşdür.

Böyük idarəetmə bacarığına, dərin zəkaya malik olan Heydər Əliyev 1982-ci ilin noyabr ayında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və Sov.İKP MK siyasi bürosunun üzvü seçildi. Bu yüksək vəzifələrdə o, İttifaqda ən ağır sahələrə məharətlə rəhbərlik etmiş və həmin sahələrə yeniliklərin tətbiq olunmasını və islahatların aparılmasını təmin etmişdir. Siyasi büronun üzvü kimi, müzakirə olunan məsələlərdə öz prinsipial mövqeyi və cəsarətli çıxışları ilə fərqlənən Heydər Əliyev çox qısa bir müddətdə dünya miqyasında tanınan şəxsiyyətə çevrilmişdir. O vaxtlar xarici işlər naziri işləyən A.Qromıko Heydər Əliyevi Siyasi Büro üzvüləri arasında ən ağıllı, ən qabiliyyətli dövlət xadimi, SSRİ-yə rəhbərlik etməyə ən real namizəd kimi qiymətləndirirdi. Bir çox xarici ölkələrin mətbuatında qabaqcıl siyasətçilərdən məhz Heydər Əliyevin SSRİ-yə rəhbərlik etməyə ən real namizəd olduğunu qeyd edirdilər.

Əlbəttə, Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP MK Siyasi Bürosunun üzvü kimi səmərəli fəaliyyətinə, onun böyük intellektinə, tükənməz enerjisinə, zəngin idarəçilik və dövlətçilik təcrübəsinə, şəxsi keyfiyyətlərinə qısqancılıqla yanaşanlar da tapılırdı. Heydər Əliyevin şəxsiyyəti fonunda cılız görünən M.Qorbaçov nəyin bahasına olursa-olsun, onu siyasi səhnədən sıxışdırıb çıxarmağa çalışırdı. SSRİ-nin dağılacağından və yeni müstəqil dövlətlərin yaranacağından xəbərdar olan M.Qorbaçovun niyyəti, ilk növbədə, xalqın milli liderini - Heydər Əliyev kimi görkəmli dövlət xadimini doğma xalqından təcrid etmək, xalqı lidersiz qoymaq və müstəqil dövlətimizin yaranmasının qarşısını almaq idi. Sonrakı mərhələlərdə isə Azərbaycanın torpaqlarını hərraca qoyaraq, ayrı-ayrı dövlətlərə satmaq və beləliklə, Azərbaycanı dünya xəritəsindən silmək idi.

M.Qorbaçov həmin məkrli planının əsas hissəsini 1987-ci ildə Heydər Əliyevi Siyasi Büronun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən kənarlaşdırmaqla həyata keçirdı. Bundan sonra o, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi istiqamətində açıq-aşkar planlı iş aparmağa başladı. Eyni zamanda, Heydər Əliyevi xalqın gözündən salmaq və onun haqqında mənfi rəy formalaşdırmaq məqsədilə Ə.Vəzirovun rəhbərliyi altında onun əleyhinə ədalətsiz, qərəzli təbliğat kampaniyası başlandı. M.Qorbaçovun tapşırığı ilə Ə.Vəzirov Dağlıq Qarabağda Volskinin rəhbərliyi və nəzarəti ilə Xüsusi İdarəetmə Komitəsi yaradıldı və faktiki olaraq həmin dövürdə Dağlıq Qarabağ Azərbaycanın yurisdiksiyasından çıxarılaraq əvvəlcə Moskvanın, sonra isə Ermənistanın tabeliyinə verildi.

Lakin M.Qorbaçovun apardığı məkirli antiazərbaycan siyasətini qətiyyən qəbul edə bilməyən xalqımız bunun əleyhinə çıxdı. 1990-cı il yanvar ayının 20-də M.Qorbaçov Azərbaycan xalqını susdurmaq məqsədilə onun üzərinə silahlı Sovet ordusunu yeridərək, xalqı qanına qəltan etdi, Ə.Vəzirov isı hərbi təyyarə ilə Moskvaya qaçmağa məcbur oldu.

Sovet imperiyasının rəhbəri M.Qorbaçov Azərbaycanda öz məkrli planlarını başa çatdırmaq məqsədilə onun tapşırıqlarını həyata keçirməyə müntəzir olan A.Mütəllibovu rəhbər təyin etdi.

A.Mütəllibov M.Qorbaçovun planlarını yerinə yetirərək respublikada dağıdıcılıq prosesinin baş təşkilatçısı oldu. Öz ümidlərini Sovet imperiyasına bağlayan A.Mütəllibov ölkədə və dünyada gedən ictimai-siyasi prosesləri düzgün anlaya və təhlil edə bilmirdi. Sovet imperiyasının tərkibində olan başqa respublikaların rəhbərlərinin çoxu SSRİ-nin dağılmasının labüdlüyünü anlayır və öz respublikalarının müstəqilliyi üçün müvafiq tədbərlər görürdülər. A.Mütəllibov isə SSRİ-nin saxlanması və Azərbaycanın onun tərkibində qalması üçün referendum keçirir, bədnam "QKÇP " müdafiə edir, tez-tez dəllal rus generalları ilə görüşür, kənd və şəhərlərimizi onların əli ilə ermənilərə təhvil verirdi.

1991-ci il martın 7-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında Heydər Əliyev SSRİ-nin dağılması, Azərbaycanda müstəqil dövlətin qurulmasının labüdlüyü haqqında çox geniş və olduqca məzmunlu tarixi çıxış etdi. Ancaq təəssüflər olsun ki, A.Mütəllibov həmin çıxışdan nəticə çıxarmaq, respublikanın müstəqilliyini və ərazi bütövlüyünü təmin etmək istiqamətində müvafiq iş görmək əvəzinə bir qrup üzdəniraq deputatı öyrədərək Heydər Əliyevi susdurmağa çalışdı. Hətta onun fəaliyyətini yoxlamaq üçün bir komissiya da təşkil etdirdi. Ancaq Heydər Əliyev heç bir təzyiq və təsirlərdən çəkinmədən, mərd-mərdanə Azərbaycanı düşdüyü çətinliklərdən çıxarmağın aydın proqramını xalqa çatdırdı. M.Qorbaçov yaxşı başa düşürdü ki, Heydər Əliyev onun məkrli planlarının qarşısını almaqa və respublikanın müstəqilliyini təmin etməyə qadir olan yeganə şəxsdir. Ona görə də o, Heydər Əliyevin respublikaya rəhbərlik etməsinin qarşısını süni maneələrlə, çox böyük vəchlə almağa çalışırdı. Azərbaycan dövləti tarixinin "A.Mütəllibov dövrü"ndə M.Qorbaçovun sifarişi ilə xalqımızın milli mənafeyinə qarşı bir çox siyasi qərarlar qəbul edilmişdir.

Belə qərarlardan biri də 1990-cı il mayın 18-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan SSR Konstitusiyasına (Əsas Qanununa) dəyişikliklər və əlavələr haqqında" qanunda "yaşı otuz beşdən aşağı və altmış beşdən yuxarı olmayan Azərbaycan SSR vətəndaşı Azərbaycan SSR prezidenti seçilə bilər" maddəsinin salınması idi.

Prezidentliyə namizədə yaş senzinin tətbiq edilməsinin olduqca gülünc, qeyri-qanuni və ən başlıcası isə insan hüquqlarının pozulmasına xidmət edən antidemokratik qərar olduğunu hər bir Azərbaycan vətəndaşı yaxşı dərk edirdi. Hamıya gün kimi aydın idi ki, belə bir rüsvayçı qərarın qəbul edilməsində məqsəd prezident seçkilərində Azərbaycan xalqının Milli lideri, Böyük dövlətçilik və idarəçilik təcrübəsi olan görkəmli şəxsiyyət cənab Heydər Əliyevin hakimiyyətə gəlməsinin qarşısını almaqdır.



Ölkədə bütün sahələrdə vəziyyət getdikcə ağırlaşırdı. Ayaz Mütəllibov ölkəni idarə etmək iqtidarında deyildi. Bu dövrdə Dağlıq Qarabağın bütün ərazisi erməni separatçıları tərəfindən işğal edildi. Tarixdə misli görünməmiş Xocalı soyqırımı baş verdi. Çoxlu sayda insanlar, qocalar, körpələr, qadınlar və dinc əhali vəhşicəsinə qətlə yetirildi. Xocalı kimi böyük bir şəhər viran edildi və yer üzündən silindi. Belə bir vəziyyətdə 1992-ci il martın 5-dən 6-a keçən gecə Ali Sovetin sessiyasında deputatlar A.Mütəllibovu istefaya göndərdilər.

Heydər Əliyev heç bir vəzifə daşımadığı dövrdə də öz xalqının taleyinə biganə qalmamışdır. M.Qorbaçovun tapşırığı ilə SSRİ Təhlükəsizlik Komitəsi Heydər Əliyevə Moskva şəhərindən kənara çıxmağa imkan vermirdi və onu ciddi nəzarətdə saxlayırdı. Bütün bunlara baxmayaraq, Bakı şəhərində 20 Yanvar qırğının səhəri günü Heydər Əliyev özünün və övladlarının həyatını təhlükə altında qoyaraq, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi. Mətbuat konfransında çıxış edərək Bakıda 20 Yanvar qırğının bilavasitə günahkarı M.Qorbaçovu ittiham etdi və Azərbaycan xalqına qarşı törədilən qanlı faciəni dünya ictimaiyyətinin nəzərinə çatdırdı.

Bir müddətdən sonra Heydər Əliyev Bakıya qayıtdı. Onun Bakıda qalıb yaşamasına M.Qorbaçov imkan vermədi. O, Heydər Əliyevi hər vəchlə Moskva şəhərinə qaytarmağa çalışırdı. Təcrübəli Heydər Əliyev isə yaxşı bilirdi ki, onu Moskvada hansı təxribatlar gözləyir. Belə bir vəziyyətdə Heydər Əliyev Naxçıvana getdi. 1990-cı ildə onu Azərbaycan SSR Ali Sovetinin və Naxçıvan MSSR Ali Sovetinin deputatı seçildilər. 1991-ci il sentyabrın 3-də isə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Ali Məclisin sədri seçildi. Bu vəzifədə o, erməni silahlı qüvvələrinin müdaxiləsinin qarşısını aldı, iqtisadi blokada şəraitində yaşayan naxçıvanlıların elektrik enerjisi, ərzaq məhsulları və gündəlik tələbat malları ilə təmin olunması üçün Türkiyə və İranla çox yaxşı əlaqələr yaratdı və onların imkanlarından istifadə etdi. Türkiyə ilə Naxçıvan arasında birbaşa əlaqə yaratmaq üçün "Ümid korpüsü" tikilib istifadəyə verildi.

Azərbaycanın SSRİ-nin tərkibində qalması ilə bağlı keçirilən referendum Naxçıvanda baykot edildi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası üstündə Azərbaycanın üçrəngli bayrağı yüksəldildi.

Qonşu Ermənistan Naxçıvana təcavüzünün vaxtında dayandırılmasına, Naxçıvanın qorunub saxlanmasına görə hər bir naxçıvanlı və hər bir ölkə vətəndaşı Heydər Əliyevə minnətdardır.

1992-ci il mayın 15-də AXC silahlı dəstələrinin və hərbi texnikanın gücü ilə Ali Sovetin binasını tutaraq hakimiyyəti ələ aldı. AXC iqtidarı öz təcrübəsizliyi və səriştəsizliyi nəticəsində elə ilk günlərdəcə ölkəni idarə etməyə qadir olmadıqlarını göstərdi. Ölkədə yaranan hərc-mərclik, idarəçilikdə hər an özünü büruzə verən hökm sürən naşılıq və nadanlıq, dövlət orqanlarının iflic vəziyyətinə düşməsi xalqda bu hakimiyyətə qarşı ikrah hissi doğurdu.

O dövrdə ölkə daxilində ictimai-siyasi vəziyyət olduqca dözülməz idi. Əhalinin ərzaqla və xüsusilə də çörəklə təminatında çox böyük çətinliklər vardı, ölkədə rüşvətxorluq və korrupsiya dövlət səviyyəsinə çatmışdır. Dağlıq Qarabağ ətrafındakı kənd, şəhər və rayonlarımız bir-birinin ardınca ermənilər tərəfindən işğal olunurdu. AXC iqtidarının yalançı təbliğat maşını isə bunların hamısını xalqdan gizlətməyə çalışırdı. Dövlət idarəçiliyində buraxılan kobud səhvlər nəticə etibarilə ölkədə vətəndaş qarşıdurmasına gətirib çıxardı.

Surət Hüseynov öz tabeliyində olan hərbi hissənin gücünə güvənərək, ölkə Prezidenti Əbülfəz Əliyev başda olmaqla, AXC-Müsavat iqtidarının istefası tələbini qoydu. Belə bir tələbdən vahiməyə düşən o zamankı iqtidar olduqca düşünülməmiş addımlar atdı, hətta S.Hüseynovun rəhbərlik etdiyi hərbi hissəni fiziki cəhətdən məhv etmək yolunu tutdu. Ancaq onların həyata keçirmək istədikləri hərbi əməliyyat uğursuzluqla nəticələndi və ölkədə hakimiyyət böhranı yarandı. Belə bir vaxtda xalqın təkidli tələbi ilə Heydər Əliyev Naxçıvandan Bakıya dəvət olundu.

1993-cü il iyunun 15-də o, Azərbaycan Respublikası Ali Sovetinin sədri, həmin ilin oktyabr ayının 3-də isə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdəcə ölkədə mövcud olan ictimai-siyasi böhranı düzgün qiymətləndirərək, respublikanı ducar olduğu bəlalardan xilas etməyin yollarını müəyyənləşdirdi. Həmin proqramın prioritet istiqamətləri ölkə daxilində ictimai-siyasi sabitliyə nail olmaq, erməni işğalçı qüvvələrinin hücümlarının qarşısını almaq, dövlət müstəqilliyini qoruyub saxlamaq və onu daha da möhkəmləndirmək, ölkənin mövcud iqtisadi potensialından tam və səmərəli istifadə etmək və respublikanın ərazi bütövlüyünü bərpa etmək idi.

İlk növbədə ölkədə ictimai-siyasi sabitliyin yaradılması istiqamətində çox gərgin iş aparıldı. O dövrdə bir çox imkanlı adamlar özlərini müdafiə etmək məqsədilə silahlı dəstələr saxlayırdılar. Belə insanlar öz niyyətlərinə nail olmaq üçün həmin silahlı dəstələrin gücündən istifadə edərək, özlərinə var-dövlət toplamaqla yanaşı, respublikada müəyyən yüksək vəzifələr ələ keçirirdilər.

Hərbi hissələri öz tabeçiliklərinə keçirmiş Əlikram Hümbətov respublikanın cənub bölgəsində "Talış Muğan Respublikası" yaratmağa, Sürət Hüseynov Gəncəbasar zonasında, Rövşən Cavadov isə rəhbərlik etdiyi Xüsusi Təyinatlı Milis Dəstəsinin gücü ilə Bakıda dövlət çevrilişi etmək cəhdinə başladılar.

Lakin Heydər Əliyevin müdrik siyasəti və xalqımızın fədakarlığı nəticəsində ölkədə qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, dövlət çevrilişlərinin qarşısı alındı, ölkə vətəndaş müharibəsindən xilas oldu.

Eyni zamanda, Ermənistan silahlı qüvvələrinin hücümlarının qarşısını almaq, ərazi bütövlüyümüzü bərpa etmək və ölkənin müstəqilliyini qoruyub saxlamaq üçün ordu quruculuğuna başlanıldı. O dövrdə ordudakı hərc-mərclik, nizam-intizamın olmaması, xüsusən də AXC-Müsavat iqtidarına valideynlərin inamsızlığı gənclərin ordu sıralarına cəlb olunmasında çox böyük çətinlik yaradırdı.

1994-cü il 4-ü noyabr Heydər Əliyevin ordu quruculuğulu ilə bağlı televiziya ilə xalqa müraciəti respublika ictimaiyyətində çox böyük əks-səda yaratdı: Heydər



Əliyevə böyük inam bəsləyən minlərlə adam öz övladını könüllü olaraq Vətəni müdafiəyə göndərdi, Azərbaycan ordusu qısa bir vaxtda böyüdü və onun döyüş qabiliyyəti artdı. Əks hücuma keçən ordumuz Ermənistan silahlı qüvvələrinin qarşısını aldı, Füzuli və Kəlbəcər rayonları ərazisinin xeyli hissəsi azad edildi. Ancaq Surət Hüseynovun adamlarının xəyanəti nəticəsində Kəlbəcər rayonunun azad edilmiş ərazisi ermənilər tərəfindən yenidən işğal olundu. Ordumuzun gücünü hiss edən Ermənistan döyüşlərin dayandırılması məqsədilə 1994-cü ilin mayında danışıqlara getməyə məcbur oldu və atəşkəs elan edildi.

Ötən müddət ərzində cənab Heydər Əliyevin rəhbərliyi altında torpaqlarımızı qorumağa və işğal altında olan ərazilərimizi azad etməyə qadir olan çox qüdrətli ordu yaradılıb. Əminik ki, Azərbaycan ordusu vaxt və məqam çatanda öz sözünü deyəcək.

O dövrdə atəşkəsin əldə olunması respublikamız üçün olduqca zəruri idi. Məhz bu imkandan istifadə edən ölkə başçısı müstəqil dövlətin ilk Konstitusiyanın qəbuluna və ilk Milli Məclisinin təşkili ilə əlaqədar seçkilərin keçirilməsinə nail oldu.

Heydər Əliyevin rəhbərliyi altında hazırlanan Konstitusiya layihəsi 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə öz təsdiqini tapdı. Artıq 8 ilə yaxındır ki, ölkədaxili məsələlər, xarici siyasətimiz Azərbaycan Respublikasının yeni Konstitusiyasının müddəalarına uyğun həyata keçirilir və bu Konstitusiya həyatda özünün demokratikliyini, beynəlxalq standartlara uyğunluğunu və işləkliyini sübut edib.

2002-ci il avqustun 24-də ümumxalq səsverməsi yolu ilə Konstitusiyaya edilən dəyişikliklər onu zamanın tələbinə uyğun daha da təkmilləşdirdi.

Azərbaycan Respublikasının 1995-ci ildə demokratik əsaslarla seçilmiş ilk parlamenti 5 il müddətində gərgin və səmərəli işləyərək, ölkə Konstitusiyasına uyğun 600-dən çox qanun və qərar qəbul etdi və beləliklə, müstəqil dövlətimizin fəaliyyət göstərməsi üçün hüquqi baza yaratdı. Artıq respublikamızda olduqca işgüzar, təkmilləşmiş parlamentarizm təcrübəsi formalaşıb.

Milli Məclisin deputatları həmçinin tez-tez xarici ölkələrdə səfərlərdə olur və Avropa Şurasının Parlament Assambleyasında nümayəndə heyətimizin, xüsusilə də onun rəhbəri millət vəkili İlham Əliyevin apardığı səmərəli iş təqdirəlayiqdir. AŞPA-nın bütün sessiyalarında İlham Əliyevin Azərbaycanın milli mənafeyinin qorunması, ölkədə Avropa dəyərlərinə uyğun hüquqi-demokratik dövlət quruculuğu, Ermənistan Respublikasının silahlı qüvvələrinin ərazimizin 20 faizini işğal etməsi, ermənilərin azərbaycanlılara qarşı apardıqları terror əməliyyatları, Ermənistanın dövlət siyasətində terrorun əsas yer tutması və digər məsələlərlə bağlı verdiyi açıqlama və etdiyi məruzələr olduqca qiymətlidir.

İki il bundan öncə Azərbaycanın AŞ-yə qəbul edilməsində müəyyən süni çətinliklər yaradılırdısa, indi İlham Əliyevin apardığı gərgin və səmərəli işi artıq öz bəhrəsini verib. Azərbaycan Avropa dövlətləri sırasında öz layiqli yerini tutub və Avropa evinin tam hüquqlu etibarlı sakininə çevrilib.

Bütün bunların nəticəsidir ki, bu ilin yanvarında İlham Əliyev AŞPA sədrinin müavini və büro üzvü seçildi. Belə böyük bir etimad hər şeydən əvvəl İlham

Əliyevin şəxsi keyfiyyətlərinə, onun Avropa tələblərinə uyğun parlament üzvü səviyyəsinə və diplomatik qabiliyyətinə verilən yüksək qiymətdir. Həyat bir daha sübut etdi ki, Heydər Əliyev siyasi məktəbinin ən layiqli davamçısı İlham Əliyevdir.

1993-cü ildən başlayaraq Heydər Əliyevin rəhbərliyilə ölkədə çox uğurlu xarici siyasət aparılıb. İlk növbədə qonşu ölkələrimiz olan Rusiya və İran İslam Respublikası ilə diplomatik əlaqələrdə olan gərginlik aradan qaldırıldı. Sonrakı illərdə isə dünyanın, inkişaf etmiş bütün dövlətləri ilə diplomatik əlaqələr yaradıldı və əməkdaşlıq haqqında ölkəmizin mənafelərini təmin edən ikitərəfli müqavilələr bağlandı. Xarici siyasətdə Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ probleminin həlli ilə əlaqədar çox gərgin iş aparılmış və bunun nəticəsində Ermənistan Respublikası silahlı qüvvələrinin təcavüzü beynəlxalq təşkilatlar tərəfindən pislənmiş və bununla bağlı bir neçə qərar qəbul edilmişdir.

Azərbaycanda yerli özünüidarəni həyata keçirən bələdiyyələr yaradılmışdır. 1999-cu il dekabrın 12-də bələdiyyələrə beynəlxalq tələblərə cavab verən seçkilər keçirilərək, respublikada bələdiyyə təsisatı yaradılmışdır. Ölkədə 2667 bələdiyyəyə 21 min nəfərdən çox üzv seçilmişdir.

Bələdiyyələrə dövlət qayğısı Prezidentin xüsusi diqqət mərkəzində olmuşdur. Bələdiyyələrə seçkilər keçirilməsi üçün büdcədən 13,1 milyard manat vəsait xərclənmişdir. Bundan başqa, bu orqanların təminat və təchizatı məqsədilə onlara binalar, müvafiq avadanlıq ayrılmış və digər ləvazimatlarla təmin olunmaları üçün 4 milyard manat vəsait ayrılmışdır. Bunlardan əlavə, bələdiyyələrə 2000-ci ildə 18 milyard manat, 2001-ci ildə 30 milyard manat, 2002-ci ildə isə 25 milyard manat dotasiya verilmişdir.

Bələdiyyələrin iqtisadi bazasını möhkəmləndirmək məqsədilə onlara 2 milyon hektardan çox və ya respublika torpaq fondunun 23,5 faizi qədər torpaq sahələri ayrılmış, dövlət mülkiyyətində olan bir sıra obyektlər onların mülkiyyətinə verilmişdir. Respublikada Ədliyyə Nazirliyinin tərkibində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi yaradılmışdır ki, bu da bələdiyyələrin normal fəaliyyət göstərmələrinə və problemlərinin həllinə yönəlmiş tədbirlərdən biridir.

Respublikamızda bələdiyyələr yaradıldığı vaxtdan bəri onların qarşısında qoyulan vəzifələri yerinə yetirərək, yerli əhəmiyyətli problemlərin həllində əhalinin iştirakı ilə xeyli iş görmüş Yerli Özünüidarə orqanları ərazilərdəki problemləri öyrənir, onların aradan qaldırılması və həlli üçün yerli sosial-müdafiə və sosial inkişaf proqramları hazırlayırlar. Bir çox bələdiyyələr şəhər və kəndlərin abadlaşması, yolların və körpülərin, məktəb və uşaq bağçalarının təmiri, yeni iş yerlərinin açılması, kiçik və orta emal müəssisələri yaradılması sahəsində müəyyən nəticələr əldə etmişlər.

Son 10 ildə dövlət idarəçilik sistemi tamamilə yenidən qurulmuş, dövlət xərclərinin idarə olunması, audit sisteminin tətbiqi, hüquq və məhkəmə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar islahatlar uğurla həyata keçirilmişdir. İcra hakimiyyəti orqanlarının işinin dinamikliyi, dövlət hakimiyyətinin digər orqanları ilə qarşılıqlı fəaliyyəti təmin edilmişdir.



Respublikada iqtisadiyyatın idarə olunması ilə bağlı 20-dən çox nazirlik, komitə, şirkət, konsern və digər dövlət strukturu ləğv edilmiş, bəzi mərkəzi icra hakimiyyəti orqanlarının səlahiyyəti və funksiyaları yeni şəraitə uyğunlaşdırılmışdır. Eyni zamanda bazar iqtisadiyyatının tələblərinə uyğun yeni qurumlar yaradılmışdır.

İqtisadi islahatları dərinləşdirmək və respublikanın iqtisadiyyatını daha da inkişaf etdirmək məqsədilə dövlət idarəçilik sistemində islahatlar aparılmışdır. İlk növbədə Nazirlər Kabinetinin səlahiyyət və funksiyaları bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmışdır.

Məhkəmə-hüquq sistemində də əsaslı islahatlar aparılmışdır və artıq ölkəmizdə Konstitusiya Məhkəməsi və üçpilləli məhkəmə sistemi fəaliyyət göstərir.

Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi və Hərbi Məhkəməsi, yerli iqtisad məhkəmələri, Beynəlxalq Müqavilələrdən irəli gələn mübahisələrə dair Azərbaycan Respublikasının İqtisad Məhkəməsi, apellyasiya məhkəmələri yaradılmışdır. Azərbaycan Respublikasının Ali Məhkəməsi mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanı olub, yalnız kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

Ölkə iqtisadiyyatı yüksək sürətlə, dinamik inkişaf etdirilərək dünya bazar iqtisadiyyatına inteqrasiya edilib. Yeraltı və yerüstü sərvətlərimizdən xalqın mənafeyi naminə səmərəli istifadə olunur. Aparılan uğurlu neft siyasəti ilə Azərbaycan dünyanın inkişaf etmiş super dövlətləri - ABŞ, Fransa, Almaniya, İngiltərə, Yaponiya, Çin, Rusiya və digər ölkələrlə iqtisadi və siyasi cəhətdən möhkəm əlaqələr yaratmışdır. 1994-cü ildə dünyanın iri neft şirkətləri ilə qurulmuş müştərək işlər – "Əsrin Müqaviləsi" artıq öz bəhrəsini verir. İlk kontrakt bağlandıqdın sonra bütün sazişlər üzrə ümumi sərmayə qoyuluşu 5,7 milyard ABŞ dolları miqdarındadır. Azərbaycan kontraktların həyata keçirilməsi nəticəsində 2,53 milyon ton neft, 2,98 milyard kub metr qaz əldə etmiş, ölkənin bu sahədən pul gəlirləri 1,5 milyard ABŞ dollarından çox olmuşdur.

Artıq "əsrin boru kəməri" kimi tarixə düşən Bakı-Ceyhan boru kəmərinin çəkilişinə başlanılmışdır.

1993-cü ildən sonra da ölkənin elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq sahəsində xeyli işlər görülmüşdür. 2000-ci ildə Yenikənd su elektrik stansiyası, 2000 və 2001-ci illərdə Bakıda istilik elektrik mərkəzləri istifadəyə verilmiş, 2002-ci ildə isə "Şimal" DRES-i yenidən qurularaq ölkənin elektrik şəbəkəsi sisteminə qoşulmuşdur. İndi respublikada 4200-4300 meqovat elektrik enerjisi istehsalı olunur ki, bu da ölkənin tələbatını tam ödəyir.

2002-ci ildə 1993-cü illə müqayisədə Ümumi Daxili Məhsul 21,2 faiz, əsas kapitala yönəldilən investisiyalar 12,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 18,2 faiz, nəqliyyat sektorunda yükdaşımalar 33,5 faiz, pərakəndə əmtəə dövriyyəsi 86,9 faiz, xarici ticarət dövriyyəsi 2,6 dəfə artmışdır.

2002-ci ildə 1998-ci illə müqayisədə ümumi daxili məhsul istehsalı 45 faiz, sənaye məhsulları istehsalı 20,5 faiz, əsaslı kapitala yönəldilən investisiyaların

həcmi 2,2 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 41,8 faiz, nəqliyyat sektorunda yük daşınması 78 faiz, pərakəndə əmtəə dövriyyəsi 49,8 faiz, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 26,2 faiz, xarici ticarət dövriyyəsinin həcmi 2,2 dəfə, əhalinin nominal pul gəliri 46,8 faiz, adambaşına düşən pul gəliri 42,4 faiz, bir işçiyə düşən orta aylıq əmək haqqı 87,2 faiz artmışdır. Həmin dövrdə istehlak qiymətlərinin indeksi 97,2 faiz olmuşdur.

Beləliklə, cənab Heydər Əliyevin rəhbərliyi altında istər 1970-80-ci illərdə, istərsə də son 10 ildə Azərbaycanda bütün sahələrdə olduqca böyük nailiyyətlər əldə edilmiş, ölkədə möhkəm ictimai-siyasi sabitliyə nail olunmuş, qüdrətli ordu yaradılmış, hüquqi, demokratik dövlət qurulmuşdur. Uğurlu xarici siyasət nəticəsində dünyanın əksər dövlətləri ilə ölkəmizin mənafelərinə uyğun diplomatik əlaqələr yaradılmış, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı çox gərgin iş aparmışdır. Ölkənin iqtisadi inkişafına nail olunmuş, insanların rifahı yaxşılaşmışdır.

Tarix bir daha sübut etdi ki, Azərbaycanın inkişafı Heydər Əliyev şəxsiyyəti və onun müdrük siyasəti ilə bağlıdır.